**Vergi inzibatçılığı islahatlarından vergi ödəyicilərinin məmnunluq səviyyəsinin qiymətləndirilməsi**

Jurnalın «Strateji idarəetmə: Bençmarkinq» bölməsində Azərbaycan Respublikası Vergilər Nazirliyinin Vergi siyasəti və strateji araşdırmalar Baş idarəsinin əməkdaşı Vüsal Şıxəliyevin «Vergi inzibatçılığı islahatlarından vergi ödəyicilərinin məmnunluq səviyyəsinin qiymətləndirilməsi» məqaləsi də dərc olunmuşdur.

Məqalədə Vergilər Nazirliyinin son illər uğurla həyata keçirdiyi vergi islahatları və onların nəticələri, vergi ödəyicilərinə təqdim olunan elektron xidmətlər barədə ətraflı məlumat verilir. Dövlətimizin təkmil vergi sisteminin təşkili istiqamətində atdığı addımlardan biri kimi vergi inzibatçılığının müasir əsaslarla qurulması və idarə edilməsi sahəsində əhəmiyyətli nailiyyətlərin əldə olunmasının həm dünya dövlətləri, həm də beynəlxalq qurumlar tərəfindən yüksək qiymətləndirilməsi oxucuların diqqətinə çatdırılır. Qeyd olunur ki, vergi ödəyicilərinə təqdim olunan bütün xidmətlərin əsas məqsədi vergi ödəyicilərinin iş yükünü azaltmaq, müxtəlif prosedurların həyata keçilməsi üçün sahibkarların vaxt və maliyyə xərclərini aşağı salaraq, ümumilikdə vergi inzibatçılığını daha sadə və səmərəli etməkdir.

Müəllifin vurğuladığı kimi, 2005-ci il Azərbaycanın müasir vergi sisteminin formalaşdırılması sahəsində növbəti inkişaf mərhələsinin təməlini təşkil edir: 2005-2007-ci illərdə vergi inzibatçılığının təkmilləşdirilməsi dövlət proqramı çərçivəsində 5 əsas istiqamət üzrə 40 irimiqyaslı tədbirin reallaşdırılması nəticəsində mühüm nəticələr əldə olunmuşdur. Aparılan kompleks islahatlar sayəsində könüllü vergi ödəmələri sistemi inkişaf etdirilmiş, vergi qanunvericiliyinin pozulması və yayınmalara qarşı davamlı mübarizə sistemi yaradılmış, vergi borclarının azaldılması mexanizmləri təkmilləşdirilmiş, vergi inzibatçılığında müasir idarəetmə sistemi, informasiya və kommunikasiya texnologiyaları tətbiq olunmağa başlamışdır.

Məqalədə qeyd olunur ki, sahibkarlıq fəaliyyətinin stimullaşdırılması üçün əlverişli şəraitin yaradılması və e-xidmətlərin tətbiqi çox mühüm əhəmiyyət kəsb edir. Bu xidmətlərin uğurla tətbiqi və vergi ödəyicilərinə səmərəli xidmət göstərilməsi üçün sonrakı mərhələ yeniliklərin vergi ödəyicilərinə operativ çatdırılması və onlara müvafiq izahların verilməsi olmuşdur. Növbəti mərhələ isə xidmətlərdən istifadə üzrə ödəyicilərin məmnunluq səviyyəsinin qiymətləndirilməsidir.

Vergilər Nazirliyi hər 3 mərhələ üzrə xüsusi yanaşma tətbiq edərək müvafiq tədbirlər həyata keçirir və yekun məmnuniyyət səviyyəsinin qiymətləndirilməsi nəticələrinə əsasən, sistemin daha da inkişaf etdirilməsi üçün səylərini davam etdirir. Məmnunluq səviyyəsinin ədaləti və şəffaf şəkildə müəyyən edilməsi üçün həm daxili, həm də kənar qiymətləndirmə metodlarından istifadə olunur. Kənar qiymətləndirmə dedikdə QHT-lər, sorğu şirkətləri, tədqiqat mərkəzləri və s. bu kimi qurumların cəlb olunması ilə aparılan qiymətləndirmə başa düşülür.

Vergi islahatları çərçivəsində görülən işlər barədə vergi ödəyiciləri və sahibkarların məlumatlı olmaları və onların məmnuniyyət səviyyəsinin müəyyənləşdirilməsinin kənardan qiymətləndirilməsi xüsusi əhəmiyyət daşıyır. Bunu nəzərə alaraq bu işə Dünya Bankı qrupuna daxil olan Beynəlxalq Maliyyə Korporasiyası (İFC) cəlb olunmuşdur. Məmnuniyyətin ölçülməsi məqsədilə sorğunun müvafiq ərazi prinsipi əsasında aparılması və nəticələrinin təhlil olunmasının yekun nəticəsi islahatların səmərəli olduğunu bir daha təsdiqləmişdir.

Məqalə müəllifi vergi inzibatçılığının sadələşdirilməsi istiqamətində aparılan işlərin ödəyicilərin vergi ödəməklə bağlı probleminin həllində kifayət qədər kömək göstərdiyini və beləliklə, vergi ödənişləri ilə bağlı yarana biləcək əlavə zaman və vəsait itkisinin qarşısının alındığını, eləcə də vətəndaşların bəyannamələri istənilən yerdə və istənilən vaxtda real vaxt rejimində doldurmaq və ödəniş həyata keçirmək imkanına malik olduğunu jurnalın oxucularının nəzərinə çatdırmışdır.

Müəllifin qənaətinə görə, e-xidmətlərin hər biri ayrı-ayrılıqda müəyyən funksiya həyata keçirməklə yanaşı, ümumilikdə vergi ödəyicilərinin və vergi orqanlarının işlərinin daha səmərəli olmasına xidmət edərək vergi inzibatçılığının dünya standartlarına uyğunlaşmasına əlverişli şərait yaradır. Məqalənin yekununda qeyd olunur ki, vergi sisteminin inkişaf strategiyasına əsasən, Azərbaycanda davamlı olaraq həyata keçirilən kompleks islahatlar çərçivəsində ən son innovativ texnologiyalarla beynəlxalq standartlara cavab verən inzibatçılıq sistemi formalaşdırılmaqdadır.